# Heç kim unudulmur, heç nə yaddan çıxmır

## *İkinci dünya müharibəsində həlak olan və itkin düşən göyçəlilərin yaddaş abidəsi*




***Bu gün Ermənistan Respublikası adlanan dövlətin ərazisinə qatılan tarixi Azərbaycan torpağında mövcud olmuş yaşayış məntəqələrimizin və orada yaşamış soydaşlarımızın aqibəti haqqında son dövrdə sanballı əsərlər yazılır. Hazırda Ermənistanın dövlət siyasəti mərhələlərlə soyqırımlarına və deportasiyalara məruz qoyularaq etnik təmizləməyə məruz qalmış soydaşlarımızın izini silməyə və onlara məxsus olmuş maddi-mədəniyyət nümunələrini yox etməyə, bu da mümkün olmadıqda başqa millətlərin ayağına yazmağa yönəlib. Lakin istər çar Rusiyası dövründə, istərsə də Sovet hakimiyyəti illərində aparılan siyahıyaalmalar, yaşayış məntəqələri haqqında verilən məlumatlar yetərincədir ki, Qərbi Azərbaycanda yaşamış soydaşlarımız haqqında kifayət qədər dolğun mənzərə ortaya qoyulsun. Bu mənzərəni yaratmaq məsuliyyəti isə ayrı-ayrı tədqiqatçıların üzərinə düşür.***

1939-1945-ci illərdə baş verən İkinci Dünya müharibəsində iştirak edərək həlak olan və ya itkin düşən Qərbi Azərbaycanda yaşamış soydaşlarımızın taleyi haqqında Sovet hakimiyyəti illərində araşdırma aparılmamışdır. Müstəqil Azərbaycanda 1997-ci ildən etibarən işıq üzü görən "Xatirə kitabı" seriyasının nəşrlərinə isə pərakəndə halda İkinci Dünya müharibəsində həlak olan və ya itkin düşən Qərbi Azərbaycandan olan soydaşlarımız haqqında məlumatlar daxil edilmişdir.

İkinci Dünya müharibəsində həlak olan və ya itkin düşən Qərbi Azərbaycanda yaşamış soydaşlarımızın aqibəti barədə ilk sistemli iş iqtisadiyyat üzrə fəlsəfə doktoru Lütfiyar Nəsibov (Lütfi Kələşli) tərəfindən aparılmışdır. Onun doğulub boya-başa çatdığı kəndi haqqında yazdığı "Göyçə: Sədənağac-Güney" (Bakı, 2019) kitabında İkinci Dünya müharibəsində həlak olan və ya itkin düşən hər bir həmkəndlisi haqqında qısa arayış təqdim etmişdir. Həmçinin onların aqibəti haqqında əldə etdiyi arxiv sənədləri əlavə olunmuşdur.

Lütfiyar Nəsibov bu sahədə axtarışlarını davam etdirərək Göyçə gölü hövzəsini əhatə edən rayonlardan İkinci Dünya müharibəsində iştirak edərək həlak olan və ya itkin düşən soydaşlarımız haqqında müxtəlif mənbələrdən rəsmi məlumatları toplayaraq sanballı əsər ortaya qoymuşdur. Onun çox böyük zəhmət bahasına ərsəyə gətirdiyi "Göyçə mahalı II Dünya savaşında: həlak olanlar, itkin düşənlər" (Bakı, 2021, 784 səh.) kitabı Basarkeçər (Vardenis), Çəmbərək (Krasnoselsk), Aşağı Qaranlıq (Martuni), Kəvər (Nor Bayazet) rayonlarınının 45 kəndini əhatə edir. Kitaba Basarkeçər rayonunun 32, Krasnoselsk rayonunun 5, Aşağı Qaranlıq rayonunun 3, Kəvər rayonunun 5 kəndi haqqında məlumatlar daxil edilmişdir.

Kitabda şəhid olmuş şəxslərin soyadı, adı, atasının adı, doğulduğu yer, hərbi xidmətə çağırıldığı hərbi komissarlıq, döyüşdüyü, şəhid olduğu, dəfn edildiyi və yaxud itkin düşdüyü yer və tarixi haqqında məlumatlar verilir.

Kitabda, həmçinin hər bir rayon haqqında və həmin rayondakı kəndin tarixi keçmişi, ərazisi, müxtəlif illərdə keçirilən siyahıyaalmalara əsasən əhalinin tərkibi haqqında ensiklopedik səciyyəli məlumatlar daxil edilmişdir. İkinci Dünya müharibəsi ərəfəsində 1939-cu ildə keçirilən siyahıyaalmanın nəticələrinə görə, Göyçə gölü hövzəsinin azərbaycanlı kəndlərində təqribən 31 min azərbaycanlı yaşamışdır. Həmin regiondan səfərbərliyə alınan azərbaycanlıların sayı təqribən 5500-6000 civarında olmuşdur. L.Nəsibovun verdiyi məlumata görə, müharibəyə aparılmış göyçəlilərdən təqribən 2377 nəfəri geri qayıtmamışdır. Bu isə ümumi səfərbərliyə alınanların 40 faizindən çoxunu təşkil edir. Məsələn, Toxlucadan səfərbər edilən 400 nəfərdən 146-sı, Ağbulaqdan səfərbər edilən 350 nəfərdən 177-si, Ardanışdan səfərbər edilən təqribən 400 nəfərdən 191-i, Zoddan səfərbər edilən təqribən 300 nəfərdən 145-i, Şişqayadan səfərbər edilən 190 nəfərdən 77-si həlak olmuş və yaxud itkin düşmüşdür.

Müəllif kitabda Göycə gölü hövzəsindən müharibəyə gedən və lakin geri dönməyən, amma cəbhədə yüksək orden və medallara layiq görülən əsgər və zabitlər haqqında topladığı məlumatları oxuculara təqdim edir. "Qızıl Ulduz" ordeni ilə təltif olunmuş əsgər və zabitlərdən: 23 düşmən əsgərini əsir götürmüş İsrafil Həsənov (1945, Sarıyaqub), Qara Ələkbərov (1944, Kəsəmən), Əli Quliyev (1944, Şaulyay şəhəri ətrafında gedən döyüşlərdə göstərdiyi igidliyə görə, ölümündən sonra, Kəsəmən), Orucalı Əhmədov (1944, ölümündən sonra, Qanlı), kiçik leytenant Məhəmməd Mustafayev (1945, Qaraman), kəşfiyyatçı starşina Məlik Rzayev (1944, Qaraman), Şəki Bayramov (1944, Şişqaya), Qurban Rəhimzadə (1945, Zağalı), starşina Hümbət Cahangirov (1944, Böyük Məzrə), Qurban İlyasov (ölümündən sonra, Babacan) kimi igidlərin adları müharibə qəhrəmanları siyahısına həkk olunmuşdur. Göyçəlilər arasında "İgidliyə görə" medalı ilə təltif olunanlar isə daha çoxdur.

Lütfiyar Nəsibov "Göyçə mahalı II Dünya savaşında: həlak olanlar və itkin düşənlər" kitabını hazırlayarkən istifadə etdiyi məlumat mənbələri bunlardır: Müharibə iştirakçılarının ailə üzvlərindən, qohum-əqrəbalarından alınmış məlumatlar; Ermənistan SSR hərbi komissarlıqlarından müharibədə həlak olan və itkin düşənlərlə bağlı SSRİ Müdafiə Nazirliyinin Mərkəzi Arxivinə göndərilən siyahılar; müharibə dövründə və müharibədən sonra həlak olanlar və itkin düşənlər haqqında ümumiləşdirilmiş məlumat bankı (www.obd-memorial.ru); müharibə iştirakçılarının taleyi haqqında ümumi məlumat bankı (www.pamyat-naroda.ru); müharibə iştirakçıları, o cümlədən arxa cəbhə zəhmətkeşləri – yaşayanlar, həlak olanlar və itkin düşənlər haqqında məlumatlar (www.moypolk.ru); Almaniya ərazisində əsirlikdə olanlar haqqında məlumat bankı – Drezden Sənədləşdirmə Mərkəzi (www.dokst.ru); XX əsrin müharibələrində itkin düşmüş Sovet və Rusiya əsgərləri haqqında məlumatlar (www.polk.ru), Hərbi dəfnlərin foto və təsvirləri (www.pomnite-nas.ru); Rusiya Federasiyasının regional arxivləri; Rusiya Federasiyası, rf-poisk.ru – "Əsgər medalyonlarından adlar" kitabı; Rusiya regionlarının yaddaş kitabları (rf-poisk.ru); Yaddaş kitabları (ayrı-ayrı regionlar, qoşun növləri, ayrı-ayrı hissələr və birləşmələr, əsirlikdə ölənlər (soldat.ru); Krım virtual nekropolu (memento.sebastopol.ua); Ukrayna e-kitab yaddaşı (memory-book.com.ua); İkinci Dünya müharibəsi illərində Polşa ərazisində həlak olmuş sovet döyüşçülərinin, hərbi əsirlərin və mülki şəxslərin dəfn edilməsinin uçotu (naiti.ru/gdansk.2007/polska/zahoronenija); Hərbi qulluqçuların taleyi haqqında müstəqil informasiya axtarışı üçün məlumat toplusu (o cümlədən 1941-1945-ci illərdə səhra poçt stansiyalarının kataloqu, 1941-1945-ci illərdə hospitalların dislokasiyası kitabçası (soldat.ru); qəzetlər; İkinci Dünya müharibəsi döyüş əməliyyatlarının təsviri və təhlili, hərbi memuarlar (www.rkka.ru); döyüş şəraiti olan hərbi-topoqrafik xəritələr (www.rkka.ru); Rusiyanın Axtarış Hərəkatının rəsmi saytı (www.rf-poisk.ru); Federal Arxiv Agentliyi (www.archives.ru); Müdafiə Nazirliyinin Mərkəzi Arxivi (archive.mil.ru); Rusiya Dövlət Hərbi Arxivi (rgvarchive.ru); Rusiya Dövlət Sosial-Siyasi İnformasiya Arxivi (rgaspi.org); Rusiya Hərbi Dəniz Donanmasının Dövlət Arxivi (rgavmf.ru); Rusiya Hərbi-Tarixi Cəmiyyəti (www.histrf.ru).

Müəllif ayrı-ayrı rayonlar üzrə topladığı arxiv sənədlərinin surətlərini də kitaba əlavə etmişdir.

Çox böyük zəhmət və şəxsi vəsaiti hesabına ərsəyə gələn, nəfis şəkildə çap edilən bu kitab həm də Göyçənin etno-demoqrafik və etno-siyasi mənzərəsini göz önündə canlandırır.

Bu kitabı İkinci Dünya müharibəsində həlak olan və itkin düşən göyçəlilərin xatirəsini əbədiləşdirən "Yaddaş abidəsi" də adlandırmaq olar.

Bir elmi-tədqiqat mərkəzinin illər uzunu görməli olduğu çətin işi təkbaşına görən Lütfiyar müəllim hazırda Ermənistan ərazisində qalan Loru-Pəmbək və Dağ Borçalı bölgələrindən İkinci dünya müharibəsində həlak olan və itkin düşən soydaşlarımızın haqqında topladığı materialları da nəşrə hazırlayıb. Yaxın vaxtlarda Qərbi Azərbaycanın digər bölgələri haqqında da analoji nəşrləri hazırlamaq niyyətindədir. Kitabların çapına rəsmi dövlət orqanlarından dəstək verilməsini zəruri hesab edirik. Bu çətin və şərəfli yolda Lütfiyar Nəsibova uğurlar arzulayırıq.

***Nazim MUSTAFA,***
***tarix üzrə fəlsəfə doktoru***